Səfiyyə Bərmuzi[2]

İNDİKİ ZAMANIN MÜTLƏQ ZAMANLAR SİSTEMİNDƏ YERİ

Feilin zaman kateqoriyası hərəkətin müəyyən danışıq vaxtına və yaxud danışıq vaxtından əvvəl və ya sonrakı vaxta münasibətini bildirir. Yəni hərəkət danışıq vaxtından əvvəl, sonra və yaxud həmin vaxtla eyni anda icra olunur. Bunun nəticəsində də, feilin indiki, keçmiş və gələcək zamanları ortaya çıxır. Danışıq vaxtı mütləq və nisbi ola bilər. Mütləq danışıq vaxtı dedikdə danışıq vaxtı və yaxud həqiqi danışıq vaxtı nəzərdə tutulur. Başqa sözlə desək, haqqında danışılan hadisə ilə zaman koordinatı üst-üstə düşərsə, danışdığımız zaman gördükələrimiz haqqında məlumat verirksə, bu mütləq zaman adlandırılır.

Hərəkət fərdi zaman oxunun hər hansı bir nöqtəsi ilə əlaqədardır. Fərdi zaman oxunun müəyyən nöqtəsi nitq momentindən asılı olaraq üç cür təzahür edir: hərəkət nitq momenti ilə üst-üstə düşərsə, indiki zamana, nitq momentindən əvvəl gəlirsə, keçmiş zamana, nitq momentindən sonra gəlirsə keçmiş zamana aid olur. Başqa sözlə desək, mütləq zaman kateqoriyası üç məna ifadə edir: indiki (bir fakt zaman baxımından başqa faktla üst-üstə düşür), keçmiş (bir fakt başqa faktdan əvvəl baş verir), gələcək (bir fakt başqa bir faktdan sonra baş verir). Verilən üç zaman arasında nitq momenti hesablama nöqtəsi kimi götürülür. Lakin müxtəlif dillərdə mütləq zamanlar həm semantik, həm də qrammatik cəhətdən fərqlənir. A.Axundov bu barədə yazır: "Bəzi dillərdə feilin zamanları hərəkətin ümumi danışıq vaxtına münasibətinə görə müəyyən edilir. Lakin danışıq vaxtına görə müəyyən edilmiş keçmiş, indiki və gələcək zamanlar bu dillərdə xüsusi qrammatik quruluş əmələ gətirir" [1, s. 42]. Bu hal bütün dillərdə olmasa da, əksər dillərdə rast gəlinəndir.

Mütləq zaman konkret olaraq "indi"yə münasibətdə təyin olunduğuna görə indiki zaman mikrosahəsinin əvvəl və sonra baş vermiş hərəkətləri zaman oxu üzərində təyin etməsi mütləq zamanın aparıcı rolunu xarakterizə edir. Hərəkət indiki zamanda müxtəlif üsullarla ifadə olunur. Zamanca nitq momenti ilə üst-üstə düşən, adət-vərdiş halını almış, müxtəlif formalarda təkrarlanan, uzun və qısa müddətdə baş verən indiki zaman mənalı hərəkətlər mövcuddur. Müxtəlifsistemli dillərin əksəriyyətində indiki zaman iki ifadə mənasında təzahür edir: birinci indiki zamanda hal və hərəkətin danışıq vaxtına tam uyğun gəlməsi, ikincində isə hal və hərəkətin icra vaxtının danışıq vaxtına bilavasitə uyğun gəlməsi [3, s. 37]. Bu məna xüsusiyyətinə görə hal və hərəkətin icra müddəti davamlılığına görə danışıq vaxtı ilə eyni zamanda baş vermir. İ.Tahirov isə bu məsələyə bu cür yanaşır: "Linqvistik indiki zaman formaları vasitəsilə nitq momentini ya zaman oxu üzərində nöqtə kimi, ya da daha geniş zaman kəsiklərini əhatə edən bütün hərəkət və proseslər ifadə edə bilər. Məhz bu invariant məna sayəsində indiki zaman mikrosahəsi həm fasiləsiz, daimi, həm də dəfələrlə təkrarlanan hərəkətləri ifadə etmək iqtidarındadır" [2, s. 81].

Qeyd etdiyimiz kimi, hərəkət və hadisənin nitq momenti ilə üst-üstə düşməsi mütləq zamanın əsasını təşkil edir. Mütləq indiki zaman hal-hazırda baş verən dinamik hərəkətləri bildirdiyi üçün, onların bəziləri müəyyən zaman ərzində baş verib bitir. B.Comrie qeyd edir ki, hər bir cəhətdən söyləm ilə hərəkətin baş verdiyi zaman arasındakı momentallıq hər zaman üst-üstə düşmür. Məsələn, "I promise to pay you ten pounds" (Sənə 10 pound verməyə söz verirəm) cümləsindəki baş verəcək hərəkətin nitq momenti söyləmin ifadə olunma vaxtı ilə üst-üstə düşmür.

Qeyd etmək lazımdır ki, bəzi dillərdə feilin zaman kateqoriyası ilə yanaşı tərz kateqoriyası da mövcuddur. Məsələn, ingilis dilində hərəkətin davamlılığı, bitmişliyi, daimiliyi feilin tərz kateqoriyası ilə müəyyənləşir.

İndiki zaman bildirən hərəkətlər əsasən uzun vaxt müddətini əhatə edir, yəni indiki zamanda olan hərəkətlər danışılan an və ondan sonrakı müddəti də əhatə edə bilər, başqa sözlə desək, hərəkət indiki zamandan əvvəl başlayıb, indini və gələcəyi əhatə edə bilər. Aşağıdakı cümlələrə nəzər salaq:

The Maiden Tower stands in Baku - "Qız qalası Bakıda yerləşir".

The girl is investigating on the subject – "Qız mövzu üzərində tədqiqat aparır".

Hər iki cümlədə hərəkət indiki anda davam edir, lakin cümlələrin hər ikisində hərəkət heç də indiki zaman ilə məhdudlaşdırılmamalıdır. Başqa zaman zərflərinin köməyi ilə ikinci cümlənin mənasında vaxt periodunun əhatəliliyini görmək mümkündür. Məsələn: *The girl is investigating on the subject* ***from two o'clock to six o'clock*** *today – "Qız mövzu üzərində* ***saat ikidən altıya qədərdir*** *ki, tədqiqat aparır".* Eyni zamanda, qeyd etmək lazımdır ki, bu tip zaman zərfləri heç də bütün hallarda indiki zaman mənası ilə üst-üstə düşmür.

Bir çox dillərdə indiki zaman adət-vərdiş halını almış hərəkətləri ifadə etmək üçün də işlədilir. Məsələn rus dilində bir nümunəyə nəzər salaq:

Он ходит в школу в восемь часов каждый день – "O, hər gün saat səkkizdə məktəbə gedir."

Bu cümlədəki vəziyyət şəxsin gündəlik həyata keçirdiyi hərəkətlərdən biridir. Cülədəki proses hal-hazırda baş verməsə də, indiki zaman mənası daşıyır. Bir çox dillərdə də ingilis dilində olduğu kimi indiki zaman adət-vərdiş halını almış hərəkətləri ifadə edir. Adət-vərdiş mənası dilin zaman sistemini deyil, aspektual və modal sistemini əhatə edir. Elə dillər vardır ki, burada adət-vərdiş halını almış hərəkətləri ifadə etmək üçün indiki zamandan fərqli zamanlar mövcuddur. Avstraliya aborigenlərinin dili olan Dyirbal dilində feilin iki təsriflənən forması mövcuddur: birincisi faktiki hərəkətləri əhatə edən indiki və keçmiş zamanı əhatə edir – indiki-keçmiş zaman, digəri isə gələcək zamanla bağlı və ümumi hərəkətləri ifadə edir, buraya davamedici və bitmiş tərzlər daxil deyilm (gələcək). Bu zamanlar arasında sərhədi tərz kateqoriyası müəyyənləşdirir və onlar öz növbəsində realis və irrealis adlandırılır. Realis tərz davamedici və keçmişdə baş vermiş hərəkətləri ifadə edir, digər bütün ifadə olunan mənalar irrealis tərzi altında cəmlənir [3, s. 39]. Digər bir dil olan Svahili dilində ümumi gerçəkliyi ifadə edən zaman forması mövcuddur. Digər

[2] *Azərbaycan Dillər Universiteti* sofi_24@list.ru

dillərdən fərqli olaraq, bu dildə davamedici hərəkətlər üçün na-, ümumi gerçəkliyi ifadə edən hadisələr üçün a-, vərdiş mənasını verən situasiyalar üçün isə hu- formalarından istifadə olunur. İngilis dilində "gnomic present tense" (qnomik indiki zaman) adlı bir məvhum vardır. Qnomik indiki zaman ümumi gerçəkliyi əks etdirən cümlələri, aforizm, atalar sözləri və məsəlləri əhatə edir. Tərz baxımından qnomiklik neytral olduğu üçün heç bir zaman axınını əhatə etmir [7]. Məsələn:

Birds fly - "Quşlar uçur".

Action speak louder than word - "Əməl sözdən daha vacibdir".

A drowning man will clutch at a straw – "Boğulan saman çöpündən yapışar".

İngilis dilində qnomik zamanı fərqləndirmək üçün xüsusi bir morfoloji əlamət yoxdur. İngilis dilində bu mənanı artiklın köməyi ilə müəyyənləşdirmək olar. Müəyyənlik artıklı (the) və işarə əvəzlikləri (this/these) xüsusi fərdlərə işarə etdiyi halda qeyri-müəyyənlik artiklı (a/an) ümumi məna yaradaraq qnomik aspekti müəyyən edir. Məsələn, cümlələr arasındakı fərqə baxaq:

Those *rabbits are fast - "O dovşanlar sürətli qaçırlar".*

Rabbits are fast – "Dovşanlar sürətli hevanlardır".

Nümunələrdən göründüyü kimi işarə əvəzliyi müəyyənlik və ya konkretlik mənasını ifadə edir, digər cümlə isə ümumi gerçəkliyi ifadə edir. Lakin İngilis dilində müəyyənlik artiklının işləndiyi cümlələrdə də qnomik indiki zamana rast gəlmək olar. Məsələn:

The *giraffe is the tallest land mammal living today – "Zürafə bugün mövcud olan ən hündür məməlidir".*

Burada the artiklı xüsusi bir zürafəni deyil, bütün sinfi müəyyənləşdirir. Ona görə də bu cümləni də qnomik indiki zamana aid etmək olar. Elə dillər vardır ki, indiki zaman gələcək zamana aid olan hərəkəti bildirir, lakin dillərin əksəriyyətində indiki zaman gələcək zamana aid hərəkətləri bildirsə də, bu dillər ayrıca zaman kateqoriyası kimi gələcək zamana da malikdir. Məsələn, alman dilində indiki zaman forması gələcək zaman mənası verə bilər. Məsələn, *Ich gehe morgen "Mən sabah gedəcəyəm"*. Lakin eyni zamanda bu dildə gələcək zaman forması da mövcuddur və bu anlaşılmazlıq yaranarsa *Ich werde gehen morgen "Mən sabah gedəcəyəm"* strukturu da işlədilə bilər [3, 44 p]. İngilis dili də bu tip dillərə misal ola bilər. Yuxarıda da qeyd etdiyimiz kimi ingilis dilində ayrıca gələcək zaman kateqoriyası mövcuddur, lakin xüsusi vəziyyətlərdə indiki zaman gələcəyə istinad edir.

İngilis dilində də indiki zaman formaları gələcək mənalı cümlələrlə işlədilə bilər. İngilis dilində həm indiki qeyri-müəyyən (present indefinte), həm də indiki davamedici (present continuous) zaman formaları gələcək zaman mənası ifadə edə bilir. İndiki qeyri-müəyyən zaman forması əsasən cədvəl üzrə planlaşdırılmış nəqliyyat vasitələrinin gediş-gəlişini, hər hansı bir tədbirin başlanma və bitmə vaxtını göstərmək üçün işlədilir. Məsələn:

My train leaves at 9 o'clock – "Mənim qatarım saat 9-da yola düşür".

The exhibition opens on Monday – "Sərgi birinci gün açılır".

İngilis dilində indiki davamedici zaman isə şəxsin planlı edəcəyi hərəkəti ifadə edir. Məsələn:

I am meeting with her at 9 o'clock tomorrow – "Mən onunla sabah saat 9-da görüşəcəm".

I have a meeting with her at 9 o'clock tomorrow – "Mənim sabah onunla saat 9-da görüşüm var" cümləsinin xəbəri to have feilinin indiki zamanında işlənib, lakin kontekstual baxımdan gələcək zamanı kodlaşdırır.

Beləliklə qeyd olunan bütün fikirləri ümumiləşdirsək, indiki zaman nitq momentini ya zaman oxu üzərində sıfır nöqtəsi kimi, ya da geniş zaman kəsiklərini əhatə edən bütün prosesləri indiki zaman məzmunu altında birləşdirir.

İstifadə olunmuş ədəbiyyat

1. Axundov A. Felin zamanları. Bakı: ADU, 1961, 138 s.
2. Tahirov İ. Azərbaycan və ingilis dillərində zaman kateqoriyası. Bakı: Nurlan, 2007, 324 s.
3. Comrie B. Tense. Cambridge University Press, p.139
4. Levin B. English Verb Classes and Alternations. Chicago: University of Chicago Press. 1993, 366 p.
5. Виноградов В.В. Русский язык. Ш., 1947, 784 с.
6. Грамматика русского языка, т.I. М., 1952, 720 с.
7. https://en.wikipedia.org/wiki/Gnomic_aspect

Açar sözlər: mütləq zaman, qnomik zaman, nitq momenti

Key words: absolute time, gnomic tense, speech moment

Ключевые слова: абсолютное время, гномическое время, момент речи

The place of present tense in the system of absolute tenses

Summary

According to the speech moment present tense form can denote both habitual and progressive actions. Habitual, customary actions are learnt under the name of gnomic present tense. Besides, in some languages present tense forms can be used for future references for special situations.

Место настоящего времени в системе абсолютных времен

Резюме

В соответствии с речевым моментом форма настоящего времени может обозначать как привычные, так и поступательные действия. Привычные действия изучаются под именем гномического настоящего времени. Кроме того, в некоторых языках формы настоящего времени могут использоваться для будущих ссылок в особых ситуациях.

Rəyçi: fil.e.d., prof. H.M.Zərbəliyev